● Teatr xadimləri

# Səhnəyə bağlı ömür...

**O iki böyük sənətkarın - Abbas Mirzə Şərifzadə və Mərziyə Davudovanın övladı idi. Firəngiz Şərifovanın atası qüdrətli aktyor, teatr və kino rejissoru, anası istedadlı teatr və kino aktrisası idi. Hər ikisi Xalq artisti adına layiq görülmüşdü. Ancaq bu iki məşhur aktyorun qızının uşaqlıq illəri bəxtəvərlik içində keçmədi...**





1924-cü ilin fevralında dünyaya gələn Firəngiz Şərifova həyatın kədər üzünü kiçik yaşlarından gördü. Azərbaycan teatr və kino sənətinin iki ulduzunun - Abbas Mirzə Şərifzadə və Mərziyə Davudovanın ulduzları barışmadı. Onlar qızları balaca ikən ayrıldılar.

Firəngiz Şərifova ömrünün ahıl çağlarında atası ilə bağlı iki xatirəni ürək yanğısı ilə danışırdı. Birində o, çox kiçikdi, anasının qucağındaydı. Atası evdən gedirdi. Balaca Firəngiz bu ayrılığın ağrısını duyurmuş kimi, qollarını geniş açıb, gücü yetdikcə ağlayırdı. Digər xatirəsində isə o, məktəbli idi. Gecənin yarısı hənirtiyə oyanan Firəngiz başının üstündə atasını görür. Abbas Mirzə qızının saçlarını oxşayırdı. Qəhərlənmişdi. Bir neçə gündən sonra - 1937-ci il dekabrın 4-də böyük aktyor öz evində həbs edildi. Həbs olunması barədə tərtib olunan arayışda yazılmışdı: "Əldə olunmuş məlumatlara görə, bir xarici dövlətin xeyrinə casusluq edib". Abbas Mirzə Şərifzadə həbsxanada ağır işgəncələrə məruz qaldı. 1938-ci il oktyabrın 19-da məhkəmə ona güllələnmə hökmü verdi. Noyabrın 16-da hökm yerinə yetirildi. Ancaq qızı Firəngiz Şərifova bundan illər sonra xəbər tutdu. 1956-cı ildə ölümündən sonra Abbas Mirzə Şərifzadəyə bəraət verildi...

Firəngiz Şərifova ailənin yaxın dostu olan Üzeyir bəy Hacıbəylinin məsləhəti ilə 1941-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının (indiki Musiqi Akademiyası) Vokal fakültəsinə daxil oldu. Konservatoriyada beş il təhsil aldıqdan sonra 1947-ci ilin əvvəllərində Cəlil Məmmədquluzadə adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrının truppasına qəbul olundu. Ancaq Firəngiz Şərifova teatr səhnəsi ilə hələ kiçik yaşlarından yalnız tamaşaçı kimi deyil, həm də balaca aktyor kimi tanış idi. O, dramaturq Cəfər Cabbarlının təkidi, atası Abbas Mirzənin razılığı ilə səkkiz yaşında "Oqtay Eloğlu"nda Sevər, sonra isə "Sevil"də Gündüz rollarında çıxış etmişdi.

Uzun illər Akademik Milli Dram Teatrının ən aparıcı aktrisalarından biri olmuş Mərziyyə Davudova altmış yaşı tamam olanda xəstə idi. Görkəmli aktrisanın yubileyi təntənə ilə qeyd olundu. Anasının yubiley mərasimindən sonra - 1960-cı il mayın 5-də Firəngiz Şərifova Akademik Milli Dram Teatrına işə qəbul edildi. Bu sənət ocağında 1965-ci il aprelin 1-dək çalışdı və qısa vaxt ərzində unudulmaz rollar yaratdı. Firəngiz Şərifova 1965-ci ildə yenidən Gənc Tamaşaçılar Teatrına döndü. Ömrünün sonunadək bu teatrın aparıcı aktrisalarından biri oldu.

O, aktrisa kimi zəngin yaradıcılıq yolu keçdi. Akademik Milli Dram Teatrının səhnəsində "Qış nağılı"nda Perdidata, "Qaçaq Nəbi"də Həcər, "Alov"da Rəfiqə Rəhimli, "Gözəllik və sevgi adası"nda ("Afrodita adası") Ket, "Dəlilər"də Erfila, "Od gəlini"ndə Gülgün, Musiqili Komediya Teatrında "Arşın mal alan"da Gülçöhrə, "Durna"da Durna, "Ulduz"da Ulduz və başqa maraqlı rolların mahir ifaçısı kimi tanındı.

Milli səhnə mədəniyyətimizin inkişafında göstərdiyi böyük xidmətlərə, qazandığı sənət uğurlarına görə Firəngiz Şərifova 1960-cı ildə Əməkdar artist, 1969-cu ildə Xalq artisti fəxri adlarına layiq görüldü. 2002-ci ildən Prezident təqaüdçüsü idi.

Atasının və anasının sənət yolunu böyük sevgi və məsuliyyətlə davam etdirmiş, Azərbaycan teatr sənətində silinməz izlər qoymuş Firəngiz Şərifova 2014-cü il fevralın 20-də vəfat etdi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***